# Qanlarıyla qalibiyyət dastanını yazdılar

Hər birimiz Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla mübarizə aparan, xalqımızın azadlığını hər şeydən uca tutan, bu yolda həyatlarını belə qurban verərək ən uca zirvəyə - şəhidlik məqamına ucalanların xatirəsini anmağa həmişə borcluyuq. Torpaqlarımızın bütövlüyü, ərazi toxunulmazlığı uğrunda canlarından keçən bu Vətən övladları hər zaman sonsuz ehtirama, sevgi və məhəbbətə layiqdirlər.

Xalqımızın azadlıq mübarizəsinin qəhrəmanlıq səhifələri çoxdur. Onlardan biri də 1990-cı ilin 20 Yanvarıdır. Xalqımızın qan yaddaşında əbədi yaşayacaq bu gün həm də milli tariximizin ən şanlı qəhrəmanlıq səhifələrindən birini təşkil edir.

Qanlı yanvar günlərində Bakıda xalqımızın azadlığı uğrunda mübarizədə şəhidlik zirvəsinə ucalanlar arasında lənkəranlı Telman Bağırov, Mirsalam Əbülfətov, Asif Əsədullayev, Əflatun Kazımov və Azad Mirzəyev də var idi. Onlar yanvarın 19-dan 20-nə keçən gecə Bakı küçələrində sovet ordusunun silahlı təcavüzünün qurbanı oldular.

O ağır günlərdə təkcə paytaxtda deyil, ölkəmizin hər yerində imperiya əsarətinə qarşı etiraz mitinqləri keçirilirdi. Cənub bölgəsində də xalq azadlıq, müstəqillik uğrunda mübarizəyə qalxmışdı. Sovet ordusunun hissələri Lənkəranda da azadlıq mücahidlərini qanlarına boyamaqdan çəkinmədi.

Lənkərana yeridilən hərbçilər xalq hərəkatı nümayəndələrindən guya onlarda olan silahları qeyd-şərtsiz təhvil verməyi tələb edir, dinc əhaliyə divan tutmaqla hədə-qorxu gəlirdilər. Vəziyyətin son dərəcə təhlükəli olduğunu görən fəallar dağlıq meşə zolağına çəkildilər ki, şəhərdəki gərginlik səngisin və əhaliyə xətər toxunmasın. Amma insanların gözünü qorxutmaq istəyən sovet ordusunun əsgərləri dərhal meşəliyi mühasirəyə alaraq oraya sığınanları güllə yağışına tutdular. Nəticədə 6 nəfər vətənpərvər - Tariyel Abdullayev, Salman Baxşıyev, Rövşən Bədəlov, Vaqif, Rahim və Şahin Məmmədovlar Haftoni meşəliyində vəhşicəsinə qətlə yetirildilər.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, bu təcavüz xalqımızı mənəvi cəhətdən çox sarsıtsa da, itkilərə məruz qoysa da, onun mənliyini tapdalaya, qürurunu sındıra bilmədi, əksinə, qəhrəmanlıq səhifəsinə yeni bir səhifə kimi yazıldı. Bəli, həmin gün Azərbaycan xalqı nəinki öz düşmənlərinə, hətta bütün dünyaya öz yenilməzliyini, cəsarətini, qorxmazlığını, mübarizliyini bir daha göstərdi.

Ölkəmizin hər yerində olduğu kimi, Lənkəranda da Yanvar hadisələri zamanı həlak olanların xatirəsi daim əziz tutulur, onların hər biri ehtiramla yad edilir.

***Natiqə AĞAYEVA,***
***Lənkəran rayonu***